Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Fevral 2024

# Dil kursu 90 gündən artıq – məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Əgər Siz Almaniyada hər hansı təhsildən asılı olmayaraq 90 gündən artıq dil kursu çərçivəsində alman dili biliklərinizi mükəmməlşdirmək istəyirsinizsə, bu halda Siz milli viza üçün müraciət etməlisiniz.

90 gündən artıq dil kursunda iştirak üçün milli viza almaqdan ötrü **yalnız kənar viza xidməti olan „VisaMetric" şirkətinə** müraciət edilməlidir. Viza sənədlərinin qəbulu mərkəzinin ünvanı:
**D. Əliyeva küç., 106, Winter Park Plaza, birinci mərtəbə, Bakı.**
Qəbul vaxtının təyin olunması üçün aşağıdakı linkdən istifadə edə bilərsiniz:
https://www.visametric.com/Azerbaijan/Germany/de/p/terminvereinbarung

Sənədlərə baxılma müddəti orta hesabla 8 həftədən ibarətdir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

- Xarici pasport, ən az 2 boş səhifəsi olmaqla *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan səhifələrin 1 ədəd surəti+əsli)*
- Şəxsiyyət vəsiqəsi yaxud Azərbaycan vətəndaşı olmayan şəxslər üçün Azərbaycanda yaşayış icazəsini təsdiq edən vəsiqə *(əsli və 2 ədəd surəti)*
- 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması
- 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)
- 1 ədəd imzalanmış Yaşamaq haqqında qanunun §54-cü maddəsinə uyğun olaraq viza proseduru zamanı saxta məlumatlara dair bəyannamə
- Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax)
- Dil məktəbinin ünvanı, kursun keçirildiyi müddət və həftəlik dərs saatlarının sayı (həftədə ən az 18 dərs saatı olmaqla) qeyd olunan təsdiq sənədi *(əsli və ya pdf sənəd+1 ədəd surəti)*
- Dil kursunun rüsumunun tam odənildiyini təsdiq edən sənəd *(əsli və ya pdf sənəd+1 ədəd surəti)*
- Yaşayacağınız yer barədə sənəd *(əsli və ya pdf sənəd+1 ədəd surəti)*
- Bu günədək əldə etdiyiniz alman dili biliklərinə dair təsdiq sənədi, məs.: dil kursunda iştirak haqqında, dil sertifikatı *(əsli + 1 ədəd surəti)*
- Orta/ali təhsili bitirməyə dair təsdiq sənədi (Diplom, Atestat) *(əsli + 1 ədəd surəti)*
- Gələcək planlar haqqında məlumat əks olunmaqla istədiyiniz dil kursunda iştiraka dair motivasiya məktubu
- Almaniyada qalmaq xərclərinizin maliyyələşdirilməsi barədə sənəd (qalacağınız birinci il üçün və ya 12 aydan az davam etdiyi təqdirdə dil kursunun müddəti üçün):
  - *Dondurulmuş bank hesabınızda* 12.324,- avro olmasını və hər ay yalnız 1.027,- Avro götürüləcəyini təsdiq edən sənəd *(1 ədəd surəti)*.
    **və ya**
  - Almaniyada yaşamaq haqqında qanunun 66-68 §§-da qeyd olunmuş öhdəlik haqqında bəyanat (Verpflichtungserklärung) (6 aydan köhnə olmamaqla, səfərin məqsədi: dil kursu göstərilməklə)

*(əsli + 1 ədəd surəti)*

**və ya**

- Dövlət fondlarından biri tərəfindən aylıq 1.027,- Avro məbləğində stpendiyanın verilməsi barədə təsdiq sənədi *(əsli + 1 ədəd surəti)*

o səfər üçün tibbi sığorta (sığorta ödənişinin minimal məbləği 30.000 Avro və bütün Şengen dövlətləri üçün etibarlı olmalı və nəzərdə tutulan səfər tarixindən etibarlı olmaqla bütün qalma müddətini əhatə etməlidir).

**Viza rəsmiləşdirilməsi proseduru zamanı yaşamaq xərcləri üçün maliyyə vəsaitinin mövcud olması dondurulmuş bank hesabı vasitəsilə sübut edilir. Dünyada belə bir servisi təklif edən bankların siyahısını isə Siz Almaniyanın Xarici İşlər Nazirliyinin rəsmi internet səhifəsindən əldə edə bilərsiniz: https://www.auswaertiges-amt.de/de/sperrkonto/375488.**